# "AZƏRENERJİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

31 dekabr 2019-cu il tarixinə bitən il üzrə
Konsolidə edilmiş Maliyyə Hesabatları

## 31 DEKABR 2019-CU İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU MƏNFƏƏT HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT

*(min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 2019 | 2018 |
|---|---|---|---|
| **GƏLİR** | | | |
| Enerji satışı | | 1,105,679 | 1,045,470 |
| Elektrik şəbəkəsinə qoşulma xidməti və digər satış gəlirləri | | 897 | 2,556 |
| | | **1,106,576** | **1,048,026** |
| XƏRCLƏR | | | |
| Yanacaq | 7 | (519,353) | (518,534) |
| Köhnəlmə və amortizasiya | 15 | (189,467) | (178,973) |
| Heyətlə bağlı xərcləri | 11 | (59,536) | (49,581) |
| Təmir və texniki xidmət | 8 | (77,764) | (39,611) |
| Gəlir vergisindən başqa digər vergilər | 9 | (36,279) | (40,568) |
| Xammal və materiallar | | (10,106) | (9,373) |
| Alınmış elektrik | | (8,208) | (11,882) |
| Kreditlərin və debitor borcların və büdcədən tələb edilə bilən ƏDV-nin dəyərsizləşməsi ehtiyatında dəyişiklik | 17, 19 | 976 | (133,480) |
| Digər | | (24,284) | 14,139 |
| *Əməliyyat mənfəəti* | | 182,555 | 80,163 |
| Maliyyə xərcləri, xalis | 12 | (41,332) | (42,238) |
| Xarici valyuta mübadiləsindən gəlir / (zərər), xalis | | 3,229 | 14,216 |
| Kreditor borcların və kreditlərin silinməsindən gəlir | 10 | 171 | 84,840 |
| Aktivlərin ləğv olunması ilə bağlı öhdəliklərdə dəyişiklik | 24 | 31,361 | - |
| Əmlak, tikili, avadanlıq və əmlak, tikili və avadanlığın alınması üçün verilmiş avanslar üzrə dəyərsizləşmə itkisi | 15, 16 | (370,311) | (196,149) |
| *Mənfəət vergisindən əvvəl zərər* | | (194,327) | (59,168) |
| Mənfəət vergisi xərci | 13 | (34,671) | (245,088) |
| *İl üzrə zərər* | | (228,998) | (304,256) |
| **İl üzrə digər məcmu mənfəət** | | | |
| Xarici valyuta ilə əməliyyatların çevrilməsindən yaranan məzənnə fərqləri | | (1,198) | (3,079) |
| **İL ÜZRƏ CƏMİ MƏCMU ZƏRƏR** | | **(230,196)** | **(307,335)** |

Əlavə edilmiş qeydlər konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## 31 DEKABR 2019-CU İL TARİXİNƏ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT

*(min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2019-cu il | 31 dekabr 2018-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| *Uzunmüddətli aktivlər* | | | |
| Əmlak, tikili və avadanlıq | 15 | 2,703,779 | 2,785,739 |
| Əmlak, tikili və avadanlığın alınması üçün verilmiş avanslar | 16 | 257,337 | 88,979 |
| Büdcədən tələb edilə bilən ƏDV | 17 | 35,312 | - |
| Təxirə salınmış vergi aktivləri | 14 | 32,339 | 48,603 |
| Digər uzunmüddətli aktivlər | 18 | 57,538 | 36,065 |
| *Cəmi uzunmüddətli aktivlər* | | 3,086,305 | 2,959,386 |
| *Qısamüddətli aktivlər* | | | |
| Mal-material ehtiyatları | 18 | 129,242 | 102,206 |
| Büdcədən tələb edilə bilən ƏDV | 17 | 265,127 | 227,575 |
| Verilmiş kreditlər və debitor borcları | 19 | 48,466 | 57,071 |
| Avans ödənişlər | 16 | 32,337 | 79,989 |
| Nağd pul və pul vəsaitlərinin ekvivalentləri | 20 | 361,375 | 287,697 |
| *Cəmi qısamüddətli aktivlər* | | 836,547 | 754,538 |
| **CƏMİ AKTİVLƏR** | | **3,922,852** | **3,713,924** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| *Kapital* | | | |
| Nizamnamə kapitalı | 21 | 1,760,495 | 1,760,495 |
| Əlavə ödənilmiş kapital | 21 | 2,164,593 | 1,762,192 |
| Yığılmış zərər | | (2,541,548) | (2,332,605) |
| Məzənnə fərqləri üzrə ehtiyat | | (5,196) | (3,998) |
| *Cəmi kapital* | | 1,378,344 | 1,186,084 |
| *Uzunmüddətli öhdəliklər* | | | |
| Kreditlər və borc vəsaitləri, uzunmüddətli hissəsi | 22 | 1,331,609 | 1,255,848 |
| Dövlət subsidiyaları | 23 | 339,206 | 88,632 |
| Təxirə salınmış vergi öhdəliyi | 14 | 123,006 | 103,659 |
| Aktivlərin ləğv olunması üzrə öhdəliklər | 24 | - | 31,435 |
| Ticarət və digər kreditor borcları | 25 | 225,855 | 1,441 |
| *Cəmi uzunmüddətli öhdəliklər* | | 2,019,676 | 1,481,015 |
| *Qısamüddətli öhdəliklər* | | | |
| Kreditlər və borc vəsaitləri, qısamüddətli hissəsi | 22 | 233,047 | 452,191 |
| Ticarət və digər kreditor borcları | 25 | 261,128 | 561,399 |
| Cari mənfəət vergisi öhdəliyi | | 625 | 5,249 |
| Mənfəət vergisindən başqa digər vergi öhdəlikləri | | 30,032 | 27,986 |
| *Cəmi qısamüddətli öhdəliklər* | | 524,832 | 1,046,825 |
| *CƏMİ ÖHDƏLİKLƏR* | | 2,544,508 | 2,527,840 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **3,922,852** | **3,713,924** |

Əlavə edilmiş qeydlər konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

**"AZƏRENERJİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**31 DEKABR 2019-CU İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ**
**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT**
***(min Azərbaycan manatı ilə)***

| | Qeydlər | Nizamnamə kapitalı | Əlavə ödənilmiş kapital | Məzənnə fərqləri üzrə ehtiyat | Yığılmış zərər | Cəmi |
|---|---|---|---|---|---|---|
| **1 yanvar 2018-ci il tarixinə qalıq** | | **1,760,495** | **1,383,003** | **(919)** | **(2,122,341)** | **1,020,238** |
| İl üzrə cəmi məcmu zərər | | - | - | (3,079) | (304,256) | (307,335) |
| Əlavə ödənilmiş kapital | 21 | - | 379,189 | - | 93,992 | 473,181 |
| **31 dekabr 2018-ci il tarixinə qalıq** | | **1,760,495** | **1,762,192** | **(3,998)** | **(2,332,605)** | **1,186,084** |
| İl üzrə cəmi məcmu zərər | | - | - | (1,198) | (228,998) | (230,196) |
| Əlavə ödənilmiş kapital | 21 | - | 402,401 | - | 20,055 | 422,456 |
| **31 dekabr 2019-cu il tarixinə qalıq** | | **1,760,495** | **2,164,593** | **(5,196)** | **(2,541,548)** | **1,378,344** |

Əlavə edilmiş qeydlər konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

**"AZƏRENERJİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**31 DEKABR 2019-CU İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ**
**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT**
***(min Azərbaycan manatı ilə)***

| | Qeydlər | 2019 | 2018 |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| *İl üzrə zərər* | | (228,998) | (304,256) |
| *Aşağıdakılara görə düzəlişlər:* | | | |
| Mənfəət vergisi xərci | | 34,671 | 245,088 |
| Köhnəlmə və amortizasiya | 15 | 189,467 | 178,973 |
| Əmlak, tikili, avadanlıq və əmlak, tikili və avadanlığın alınması üçün verilmiş avanslar üzrə dəyərsizləşmə | 16, 15 | 370,311 | 196,199 |
| Mal-materiallar üzrə dəyərsizləşmə zərəri / (dəyərsizləşmə zərərinin bərpası) | | 707 | (456) |
| Verilmiş kreditlər və debitor borcları, və büdcədən tələb edilə bilən ƏDV üzrə dəyərsizləşmə zərəri / (dəyərsizləşmə zərərinin bərpası) | 17, 19 | (976) | 133,480 |
| Aktivlərin ləğvi ilə bağlı öhdəliklərdə dəyişiklik | 24 | (31,361) | - |
| Kreditor borcların və kreditlərin silinməsindən gəlir | 10 | (171) | (84,842) |
| Xarici valyuta mübadiləsindən (gəlir) / zərər, xalis | | (3,229) | (14,216) |
| Elektrik şəbəkəsinə qoşulma xidməti və digər satış gəlirləri | | (1,002) | - |
| Maliyyə xərcləri, xalis | 12 | 41,332 | 42,238 |
| | | 370,751 | 392,208 |
| *Dövriyyə kapitalındakı hərəkətlər:* | | | |
| Mal-materiallarda artım | | (47,466) | (22,499) |
| Büdcədən tələb edilə bilən ƏDV-də artım (i) | | (68,271) | (19,190) |
| Verilmiş kreditlər və debitor borclarında azalma / (artım) | | 12,958 | (30,632) |
| Avans ödənişlərdə azalma / (artım) | | 47,652 | (30,720) |
| Ticarət və digər kreditor borclarında artım / (azalma) (ii) | | 10,501 | (29,449) |
| Mənfəət vergisindən başqa digər vergi öhdəliklərində azalma (i) | | (3,246) | (3,325) |
| *Əməliyyat fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri* | | 322,879 | 256,393 |
| Ödənilmiş mənfəət vergisi | | (3,138) | (364) |
| Ödənilmiş faiz (ii) | | - | - |
| **Əməliyyat fəaliyyəti üzrə əldə olunan xalis pul vəsaitləri** | | **319,741** | **256,029** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Əmlak, tikili və avadanlığın alınması (iii) | | (649,621) | (390,172) |
| Verilmiş kreditlər üzrə daxilolmalar | | - | 31,127 |
| **İnvestisiya fəaliyyətinə yönəldilən xalis pul vəsaitləri** | | **(649,621)** | **(359,045)** |
| **MALİYYƏ FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Borc vəsaitlərinin geri ödənilməsi (ii) | | - | - |
| Dövlət subsidiyasının əldə edilməsi | | 84,243 | - |
| Səhmdar tərəfindən əlavə ödənilmiş kapitala daxilolmalar (ii) | | 318,791 | 240,633 |
| **Maliyyə fəaliyyətindən əldə olunan xalis pul vəsaitləri** | | **403,034** | **240,633** |
| **NAĞD PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİNDƏ XALİS ARTIM** | | **73,154** | **137,617** |
| **İLİN ƏVVƏLİNDƏ NAĞD PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ** | 20 | **287,697** | **148,335** |
| Valyuta məzənnələrində dəyişikliklərin xarici valyutada saxlanılan nağd pul və pul vəsaitlərinin ekvivalentlərinin balans dəyərinə təsiri | | 524 | 1,745 |
| **İLİN SONUNDA NAĞD PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ** | 20 | **361,375** | **287,697** |

Deloitte.

Deloitte &Touche MMAC
BakıAğŞəhərOfisBinası
Nobel pros. 25E, Bakı, AZ1025
Azərbaycan
Tel: +994 (12) 404 12 10
Faks: +994 (12) 404 12 11
deloitte.az

# MÜSTƏQİL AUDİTORUN HESABATI

"AZƏRENERJİ" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarına və Rəhbərliyinə:

## Rəy

Biz "AZƏRENERJİ" Açıq Səhmdar Cəmiyyəti və onun törəmə müəssisələrinin (birlikdə "Qrup") 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatdan və həmin tarixə bitən il üzrə konsolidə edilmiş mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatlardan, habelə mühüm mühasibat uçotu siyasətlərinin icmalı və digər izahlı qeydlərdən ibarət olan konsolidə edilmiş maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, əlavə edilən konsolidə edilmiş maliyyə hesabatları Qrupun 31 dekabr 2019-cu il tarixinə konsolidə olunmuş maliyyə vəziyyətini və həmin tarixə başa çatan il üzrə konsolidə edilmiş maliyyə nəticələri və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatları üzrə Beynəlxalq Standartlara ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

## Rəyin əsasları

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun olaraq yerinə yetirdik. Həmin standartlar üzrə bizim məsuliyyətimiz hesabatımızın irəlidə *Konsolidə edilmiş maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti* bölməsində təsvir olunur. Biz, *Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının ("İESBA") Peşəkar Mühasiblər üçün Etika Məcəlləsinə ("İESBA Məcəlləsi")* uyğun olaraq Qrupdan asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk və etika ilə bağlı digər öhdəliklərimizi MBESŞ Məcəlləsinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və uyğun əsası təmin edir.

## Konsolidə edilmiş Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri Olan Şəxslərin məsuliyyəti

Rəhbərlik konsolidə edilmiş maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, həmçinin fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq mühüm təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasını təmin etmək üçün rəhbərliyin zəruri saydığı daxili nəzarət üzrə məsuliyyət daşıyır.

Konsolidə edilmiş maliyyə hesabatlarını hazırlayarkən, rəhbərliyin Qrupu ləğv etmək və ya əməliyyatlarını dayandırmaq niyyətində olduğu və ya bunu etməkdən başqa heç bir real alternativi olmadığı hallar istisna olmaqla, rəhbərlik Qrupun fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsi qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsizliklə bağlı məsələlərin açıqlanmasına və mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyəti olan şəxslər Qrupun konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

Deloitte refers to one or more of Deloitte Touche Tohmatsu Limited, a UK private company limited by guarantee ("DTTL"), its network of member firms, and their related entities. DTTL and each of its member firms are legally separate and independent entities. DTTL (also referred to as "Deloitte Global") does not provide services to clients. Please see www.deloitte.com/about for a more detailed description of DTTL and its member firms.

© 2021 Deloitte &Touche LLC. All rights reserved.

**Konsolidə edilmiş Maliyyə Hesabatlarının auditi üzrə Auditorun məsuliyyəti**

Bizim məqsədimiz ümumilikdə konsolidə edilmiş maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək mühüm təhriflərin olmaması barədə kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə birləşdirən auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik yüksək səviyyəli əminliyi əks etdirir, lakin bu, BAS-a uyğun olaraq aparılan audit nəticəsində hər zaman mövcud olan bütün mühüm təhriflərin aşkar ediləcəyinə zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər və fərdi və ya məcmu halda götürməklə, istifadəçilərin hazırkı konsolidə edilmiş maliyyə hesabatları əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı hallarda əhəmiyyətli hesab edilir.

BAS-a uyğun olaraq aparılmış auditin bir hissəsi kimi, biz audit zamanı peşəkar mülahizələr irəli sürür və peşəkar inamsızlığı qoruyub saxlayırıq. Biz həmçinin:

- Konsolidə edilmiş maliyyə hesabatlarının fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli şəkildə təhrif olunması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını tərtib edir və həyata keçirir, həmçinin rəyimiz üçün əsas verəcək yetərli və uyğun audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış mühüm təhriflərin aşkar olunmaması riski səhv nəticəsində yaranmış mühüm təhriflərin aşkar olunmaması riskindən yüksəkdir, belə ki, fırıldaqçılığa gizli sövdələşmə, saxtakarlıq, qəsdən səhv buraxma, yanlış təqdimat və ya daxili nəzarət qaydalarına əməl olunmaması daxil ola bilər.
- Müəyyən şəraitlərdə münasib olan audit prosedurlarının tərtib edilməsi məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman Qrupun daxili nəzarət mexanizminin səmərəliliyi barədə rəy bildirmək məqsədi güdmürük.
- Rəhbərlik tərəfindən istifadə edilmiş mühasibat uçotu prinsiplərinin münasibliyini, edilmiş uçot təxminlərinin və aidiyyəti açıqlamaların əsaslılığını qiymətləndiririk.
- Rəhbərlik tərəfindən mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadənin müvafiqliyi və əldə olunmuş audit sübutuna əsaslanaraq Qrupun öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsinə şübhə yarada biləcək hadisə və ya şəraitlərlə bağlı mühüm qeyri-müəyyənliyin mövcud olub-olmaması barədə nəticə çıxardırıq. Mühüm qeyri-müəyyənliyin olması qənaətinə gəldiyimiz halda, biz auditor hesabatımızda diqqəti konsolidə edilmiş maliyyə hesabatlarının müvafiq açıqlamalarına yönəltməli və ya belə açıqlamalar qeyri-kafi olduqda rəyimizə düzəliş etməliyik. Bizim nəticələr auditor hesabatımızın tarixinədək əldə olunan audit sübutuna əsaslanır. Bununla belə, gələcək hadisə və şəraitlər Qrupun öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməməsinə səbəb ola bilər.
- Konsolidə edilmiş maliyyə hesabatlarının ümumi təqdimatı, struktur və məzmunu, o cümlədən açıqlamaları və konsolidə edilmiş maliyyə hesabatlarının təməl əməliyyat və hadisələri düzgün əks etdirib-etdirməməsini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri olan şəxslərə digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış əhatə dairəsi və vaxtı, audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarətdə aşkar etdiyimiz hər hansı mühüm çatışmazlıqlar barədə məlumat veririk.

Deloitte + Touche LLAC

5 mart 2021-ci il

DELOITTE & TOUCHE
MƏHDUD MƏSULİYYƏTLİ AUDİTOR CƏMİYYƏTİ
AZERBAIJAN